# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 203** **QƏRAR** **Bakı şəhəri, 25 may 2016-cı il**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli qərarı ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nda dəyişikliklər edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Mərkəzi Bankının aidiyyəti orqanlarla razılaşdırılmış təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 27 avqust tarixli 118 nömrəli qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, N 8, maddə 662; 2005, N 2, maddə 134; 2006, N 3, maddə 299; 2009, N 2, maddə 157, N 10, maddə 853; 2012, N 3, maddə 252; 2014, N 6, maddə 747, N 8, maddə 1023) ilə təsdiq edilmiş "Müəssisə və təşkilatların, habelə sahibkarlıqla məşğul olan fiziki şəxslərin iş xüsusiyyətlərinə uyğun olaraq ciddi hesabat blanklarının tərtibi və tətbiqi Qaydaları"nın 1.2-ci, 1.5-ci və 1.6-cı bəndlərində "Kütləvi Ödənişlər üzrə Mərkəzləşdirilmiş İnformasiya Sisteminin" sözləri "Hökumət Ödəniş Portalının" sözləri ilə əvəz edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***